# Fransa AŞPA-nı çirkin oyunlarına qoşub

**"Fransa ilə Azərbaycan arasında müşahidə olunan gərginliyin əsas səbəbi Parisin Azərbaycan-Ermənistan qarşıdurmasında tutduğu ədalətsiz və qərəzli mövqedir. Fransa uzun müddətdir ki, Ermənistana hər cür - diplomatik, iqtisadi və hərbi dəstək verməklə Bakı ilə İrəvan arasında sülhün əldə olunmasına əngəl törədir. Bu tendensiya BMT Təhlükəsizlik Şurası, Avropa İttifaqı (Aİ) və onun qurumlarında da davam etdirilir, Fransa müxtəlif beynəlxalq platformalarda ölkəmizə qarşı açıq şəkildə düşmənçilik aparır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, bu addımlardan sonra bumeranq effekti ilə Parisin özünün də zərbələr aldığına şahidlik edirik. Həmçinin Fransanın təmsil olunduğu Avropa İttifaqının da nüfuzuna ciddi ziyan dəyir.

Deputat söyləyib ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində və ötən il sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində əldə etdiyi qələbədən sonra Fransanın erməniPərəst mövqeyi daha da sərtləşib: "Bu ölkə Ermənistana öz əyaləti, müstəmləkəsi kimi baxır. Belə olan halda, Azərbaycanın ard-arda əldə etdiyi qələbələr işğalçı ölkənin ağası sayılan, onu münaqişələrə təhrik edən Fransanı isterik hala salıb. AŞPA-da Azərbaycan nümayəndə heyətinin mandatının təsdiqlənməməsi üçün parlamentarilərə təzyiqlər edən Paris ədalətsiz mövqeyini davam etdirir. Əslində, Avropa İttifaqı üçün Cənubi Qafqazda Azərbaycanla tərəfdaşlıq etmək daha maraqlı olmalıdır. Qısqanclığını cilovlaya bilməyən Fransa isə Avropa İttifaqı ölkələrinə özünün liderliyini təsdiq etmək üçün Azərbaycan kimi etibarlı tərəfdaşa, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkəyə qərəzli hücumlar təşkil edir. Fransanın və rəsmilərinin qeyri-adekvat addımları onları beynəlxalq aləmdə gülünc vəziyyətə salıb".

Azərbaycanın Fransanın qərəzli addımlarına cavabının qətiyyətli olduğunu deyən Aydın Hüseynov əlavə edib: "Parisin bütün dünyada müstəmləkəçi və soyqırımı törədən ölkə kimi ifşa edilməsi məntiqli addım idi. Hətta Azərbaycan növbəti mərhələlərdə bunun davamını da gətirə bilər. Əgər Fransa qərəzsiz mövqe sərgiləməsə, hücumlarını dayandırmasa, Cənubi Qafqazda Ermənistan kimi proksi ölkə vasitəsilə münaqişəni davam etdirsə, ona qarşı sanksiya da tətbiq edə bilərik. Bu isə Fransanın işinə yaramayacaq. Nəzərə almaq lazımdır ki, Fransanın ölkəmizdə fəaliyyət göstərən böyük şirkətləri var".

Deputat həmçinin AŞPA-nın ölkəmiz əleyhinə qərarının da Fransanın təhriki və sifarişi ilə qəbul edildiyini qeyd edib. Vurğulayıb ki, AŞPA-da əleyhimizə verilən qərarda irqçilik, türkofob və islamofobiya təzahürləri mövcuddur: "Lakin bu qərəzli davranış yeni deyil. Biz bu quruma üzv olduğumuz gündən AŞPA-da aparılan müzakirələrdə daim ermənipərəst münasibətlə üzləşmişik. Görünür, vaxtilə bu təşkilatda ədalət axtarmaqda yanılmışıq. Son hadisələr də bir daha sübut etdi ki, AŞPA açıq-aşkar riyakarlıq nümayiş etdirir. Demokratiyadan, insan haqlarından ağızdolusu danışan həmin təşkilat, əslində, bütün bunlardan məhrumdur. Avropa Şurasına üzv olduğumuz 23 il ərzində keçirilən iclaslarda, qəbul edilən qərarlarda Ermənistanın işğalçı siyasətini pisləyən bir cümlə belə işlədilməməsindən də bu qurumun ermənipərəst mövqeyə sahib olduğu onsuz da aydın idi".

Aydın Hüseynovun dediyinə görə, Azərbaycan nümayəndə heyətinin korrupsiyalaşmış və islamofob düşüncəli qüvvələrin qərəzləri ilə dolmuş bir təşkilatda təmsilçiliyinə son qoyması məntiqlidir: "AŞPA bu günə qədər heç bir sənədində Azərbaycanın ərazi bütövlüyünü, vətəndaşlarının Ermənistan tərəfindən pozulmuş hüquqlarının bərpasını müdafiə etməyib. Ermənistan Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazilərinin 20 faizini işğal etsə də, AŞPA hələ indiyə qədər İrəvana "gözün üstdə qaşın var" deməyib. Əksinə, daim separatçıları himayə edib, məsələyə ikili standartlardan yanaşıb. Halbuki bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. Bunun əvəzində, AŞPA 2023-cü il oktyabrın 23-də "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamə qəbul edib. Əlbəttə, əvvəlcədən hazırlanmış bu ssenarilərin arxasında AŞPA rəhbərliyi özü dayanır".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***




azerbaijan-news.az

Azərbaycan.- 2024.- 4 fevral, № 24.- S.3.